# Xarici müşahidəçilər parlament seçkilərinin beynəlxalq standartlara uyğun keçirildiyini bəyan etdilər



***9 fevral ərəfəsində, səsvermə günü və seçkidən sonra iştirak etdiyimiz tədbirlərin hamısında çoxsaylı əcnəbilərlə görüşdük. Ölkəmizə müşahidəçi, mətbuat təmsilçisi və hətta turist kimi gəlmiş əcnəbilərin hamısından həm Azərbaycan, həm də parlament seçkiləri barədə kifayət qədər xoş sözlər eşitdik.***

Görüşlərin, mətbuat konfranslarının hər birində Mərkəzi Seçki Komissiyasının əcnəbi müşahidəçilər və KİV təmsilçiləri haqqında seçkidən əvvəl verdiyi məlumatların hamısının real təsdiqini gördük. Həmin məlumatlarda bildirilirdi ki, seçkilərlə əlaqədar 883 beynəlxalq müşahidəçi akkreditasiyadan keçmişdir. Beynəlxalq müşahidəçilər 59 beynəlxalq təşkilatı və 58 ölkəni təmsil edirdilər. Eləcə də, parlament seçkilərinin gedişini 132 beynəlxalq KİV-in 199 təmsilçisi işıqlandırırdı. Həmin KİV nümayəndələri ABŞ, Meksika, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Türkiyə, Rusiyanın da daxil olduğu 47 ölkəni təmsil edirdilər. Həm əcnəbi müşahidəçilərin, həm də xarici jurnalistlərin təmsil etdiyi ölkələrin coğrafi mövqeyinə baxanda, gözümüz önündə, az qala, dünyanın fiziki xəritəsi canlanırdı.

Əcnəbi müşahidəçilərin hamısı 9 fevral parlament seçkiləri haqqında müsbət fikir səsləndirirdilər. Ancaq maraqlısı bu idi ki, hamısı eyni fikirdə olan insanların həddən artıq fərqli yanaşma tərzləri var idi. Məsələn, okeanın o tayından – Braziliyadan gəlmiş nümayəndə heyətinin üzvləri – Senatda və Konqresdə Azərbaycan – Braziliya dostluq qruplarının rəhbərləri Antonio Anastasia və Klaudio Kajado keçirdikləri mətbuat konfransında ölkəmizdəki seçki prosesindən məmnunluqlarını bildirdilər: “Azərbaycana səfərimiz müddətində namizədlərlə tanış olduq, seçicilərlə görüşdük. Seçkilər tam demokratik şəraitdə keçdi. Məntəqələrdə hər hansı qanun pozuntusu ilə rastlaşmadıq”. Onlar hətta, şəffaf və demokratik seçkilərə görə Azərbaycan xalqını təbrik etməyi də unutmadılar.

Xüsusilə qeyd edək ki, ölkəmizə gələn ən böyük nümayəndə heyətlərindən biri də MDB-nin müşahidə missiyası idi. Biz həmin missiyanın da seçkidən sonra keçirdiyi mətbuat konfransında iştirak etdik. Missiyanın rəhbəri Viktor Quminski dedi ki, Azərbaycanda parlament seçkiləri Azərbaycan Konstitusiyası və qanunvericiliyinə uyğun olaraq, rəqabətli və demokratik şəkildə həyata keçirilib: “ “Bizdə kiməsə manea yaradılması ilə bağlı məlumat yoxdur. Namizədlərlə bağlı onu deyə bilərik ki, seçkilərdə iştirak etmək istəyən namizədlərin sayı əvvəlki illərdəkindən çox idi. Bu seçicilərə daha layiqli namizədi seçmək şansı qazandırıb… Onu da bildirmək istərdim ki, yerli və beynəlxalq müşahidəçilərin sayı da kifayət qədər çox olub. Səsvermə sakit və yüksək şəkildə təşkil olunub”.



Yeri gəlmişkən, MDB Parlamentlərarası Assambleyasına üzv ölkələrin vətəndaşlarının Demokratiyanın, Parlamentarizmin və Seçki Hüquqlarının İnkişafı Monitorinqi Beynəlxalq İnstitutunun direktoru İvan Muşket ayrılıqda keçirdiyi mətbuat konfransında dedi ki, Azərbaycanda parlament seçkiləri seçki prosesi qanunvericiliyə uyğun təşkil olunub: “Səsvermədən əvvəlki günlərdə siyasi partiyaların rəhbərləri ilə görüşdük, təəssüratımız yüksəkdir. Seçki Məcəlləsinin tələblərinə əməl olunur”.

Müstəqil Dövlətlər Birliyinin müşahidə missiyasından əlavə, həmin quruma daxil olan ölkələrin özlərinin də ayrılıqda müşahidə missiyaları gəlmişdi. Məsələn, Belarus parlamentinin müşahidə missiyasının rəhbəri Sergey Raçkov müşahidə apardıqları seçki məntəqələrində fəallığın olduğunu bildirdi. Dedi ki, təşkilatçılıq yüksək səviyyədə idi. Hazırlıq səviyyəsi də yaxşı idi. Namizədlərin hər biri üçün bərabər şərait yaradılmışdı. Bu da şəffaflığın və ədalətli seçkinin olduğunu göstərirdi. Həm seçicilər, həm seçki təşkilatçıları, həm də namizədlərin nümayəndələri ilə apardığımız müşahidələr zamanı yüksək səviyyədə hazırlığın şahidi olduq. Qanun pozuntuları yox idi. İnanırıq ki, yeni parlamentlə də əməkdaşlığımızı davam etdirəcəyik”.

Növbəti mətbuat konfransında vyetnamlı müşahidəçinin işlətdiyi “Biz Azərbaycanın seçki keçirmək təcrübəsini öyrənməliyik” – ifadəsi tədbir iştirakçılarının marağına səbəb oldu. Asiyanın cənubundan gəlmiş müşahidəçi – Vyetnam – Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Nghiem Vu Khai bu fikirdə idi ki, istənilən xarici ölkədən gəlmiş şəxs üçün Azərbaycanda keçirilən seçkiləri sərbəst şəkildə izləmək mümkündür: “İnsanların barmaqlarına mürəkkəbin vurulması da bizim üçün yenilik idi. Bu, şəffaflığın tam təmin edilməsinin göstəricisidir”.

Asiyalı müşahidəçidən fərqli olaraq avropalı müşahidəçi– Almaniya Sosial Demokrat Partiyasının (SPD) üzvü, SPD fraksiyasından Ştefen-Klaudio Leme (o, 2009–2017-ci illərdə Alman Bundestaqının üzvü olub) əsas diqqəti seçkinin şəffaflığının üstünə çəkirdi: “ Azərbaycanda seçici fəallığı yüksəkdir və səsvermə prosesi şəffaf gedir. Hər kəs üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir”.

İsrailli müşahidəçi, tanınmış politoloq Arye Qut isə öz ölkəsindən gəlmiş müşahidəçilərlə yanaşı, İsrail mətbuatını təmsil edənlərin də adından danışdı: “Nümayəndə heyətimizin tərkibində dörd KİV nümayəndəsi və üç beynəlxalq müşahidəçi var. Onların hamısı səsvermənin gedişi barədə müsbət fikirdədir”.

Cənubi Asiyadan olan daha bir nümayəndə – İndoneziya müşahidəçilər missiyasının üzvü Veramella Ancaya Azərbaycan vətəndaşlarının ruh yüksəkliyi ilə səs verdiyini bildirdi və əlavə etdi ki, bu, səsvermə sisteminin səmərəliliyini göstərir: “Təşkilatçılıq səviyyəsi heyrətləndirir. Seçki prosesi azad, ədalətli və mütəşəkkil keçir. Həm yerli, həm də xarici müşahidəçilərin çox sayda olması seçkilərin şəffaflığından xəbər verir”.

Qardaş Türkiyədə fəaliyyət göstərən “Ülkə” Telekanalının baş redaktoru, “Yeni Şafak” qəzetinin köşə yazarı Hasan Öztürk mətbuata verdiyi müsahibədə bildirib ki, gün ərzində davam edən ardıcıl müşahidələrimizdə seçici fəallığının normal olduğunu gördük və qanunazidd hallarla rastlaşmadıq.

Daha bir müsəlman ölkəsinin müşahidəçiləri – Pakistan nümayəndələri də ölkəmizdə keçirilən parlament seçkiləri haqqında yüksək fikirdə olduqlarını söylədilər. İslamabad Qlobal və Strateji Araşdırmalar Mərkəzinin baş direktoru Xalid Teymur Əkrəm seçki başa çatdıqdan sonra “Hilton” otelində keçirdiyi mətbuat konfransında qətiyyətlə vurğuladı ki, 9 fevral seçkiləri azad, demokratik və şəffaf keçib: “Hər hansı qanun pozuntusuna rast gəlmədik. Bu seçkilər Azərbaycanın uğurlu gələcəyi yolunda atılan addımdır. Yeni formalaşmış parlamentin Azərbaycanın inkişafı üçün daha yaxşı işlər görəcəyinə əminik”.

***Hazırladı:***
***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 11 fevral.- S.9.